**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

Əmr 044
«27» mart 2000-cı il

Sədr _______________ H. Babayev

(02 iyul 2004-cü il tarixli 097 №-li Əmrin redaksiyasında)

# Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatlarının fəaliyyəti QAYDALARI

1. Ümumi müddəalar.

1.1. Bu Qaydalar «Qiymətli kağızlar haqqında» Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnaməyə müvafiq hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatlarının fəaliyyətini tənzimləyir.

1.3. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının könüllülük, qeyri-komersiya prinsipləri əsasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olan ictimai birlikdir.

1.4. Öz-özünü tənzimləyən təşkilat qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən qiymətli kağızlar bazarında peşəkar fəaliyyət üçün şəraitin təmin edilməsi, qiymətli kağızlar bazarında peşəkar etika standartlarına riayət edilməsi, qiymətli kağızların sahiblərinin və öz-özünü tənzimləyən təşkilatın üzvü olan qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının digər maraqlarının müdafiə edilməsi, qiymətli kağızlar bazarında səmərəli fəaliyyəti təmin edən qiymətli kağızlarla əməliyyatların aparılması qaydalarının və standartlarının qanunvericilik əsasında müəyyən edilməsində iştirak etmək üçün təsis edilir.

1.5. Öz-özünü tənzimləyən təşkilat, qiymətli kağızlar haqqında Azərbaycan Respublikası qanunvericiliyi və QKDK-nın normativ aktları ilə müəyyən edilmiş qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərinə və «Qiymətli kağızlar bazarında peşəkar fəaliyyəti həyata keçirən hüquqi və fiziki şəxslərin peşəkar fəaliyyətinin növləri ilə məşğul olması üzrə Tələblər»ə uyğun olaraq qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən yaradılır.

1.6. Qüvvədən düşüb(02.07.2004)

1.7. Öz-özünü tənzimləyən təşkilat öz üzvləri üçün qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin xüsusiyyətlərini müəyyən edir.

2. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatlarının hüquq və vəzifələri.

2.1. Öz-özünü tənzimləyən təşkilat aşağıdakı hüquqlara malikdir:

2.1.1. qiymətli kağızlar haqqında Azərbaycan Respublikası qanunvericiliyi əsasında öz üzvləri üçün qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin və qiymətli kağızlarla bağlı əməliyyatların həyata keçirilməsi üçün daxili qaydalarını və standartlarını müəyyən edir;

2.1.2. öz üzvləri üçün qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin həyata keçirilməsinə lisenziyanın alınması üçün QKDK-ya vəsatət təqdim edir;

2.1.3. qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyini, bu Qaydaları, QKDK-nın normativ aktlarını, həmçinin öz-özünü tənzimləyən təşkilatın nizamnaməsini pozan üzvlərə qarşı öz səlahiyyətləri çərçivəsində sanksiyalar tətbiq edir;

2.1.4. qiymətli kağızlar bazarında peşəkar fəaliyyətlə məşğul olan təşkilatların əməkdaşlarının QKDK-nın ixtisas tələblərinə uyğun olaraq hazırlanması üçün tədris proqramlarını və planlarını hazırlayır, onların peşəkarlığını müəyyən edir;

2.1.5. qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin təkmilləşdirilməsinə dair təkliflərini QKDK-ya təqdim edir.

2.1.6. Öz-özünü tənzimləyən təşkilat fəaliyyəti üçün zəruri olan məlumat və hesabatları öz üzvlərindən tələb etmək hüququna malikdir.

Əldə edilmiş məlumat, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallardan başqa, digər dövlət orqanlarına, həmçinin təşkilatlara açıqlana və verilə bilməz.

2.2. Öz-özünü tənzimləyən təşkilatın vəzifələrı aşağıdakılardır:

2.2.1. qiymətli kağızlar bazarında yüksək standartların saxlanılmasına aid qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə və QKDK-nın tələblərinə əməl etmək;

2.2.2. qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin, bu Qaydaların, QKDK-nın normativ aktlarının, həmçinin öz-özünü tənzimləyən təşkilatın nizamnaməsinin və daxili sənədlərinin üzvləri tərəfindən pozulmasını vaxtında aşkar etmək və qarşısını almaq;

2.2.3. qiymətli kağızlar bazarını tənzimləyən və nəzarət edən QKDK-a ilə aktiv əməkdaşlıq etmək;

2.2.4. Qüvvədən düşüb(02.07.2004)

2.2.5. üzvləri haqda məlumatı cəmləşdirən məlumat bazasını aparmaq.

2.3. Öz-özünü tənzimləyən təşkilata daxil olan qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının əməkdaşları öz-özünü tənzimləyən təşkilatın ştatına daxil edilə bilməz.

2.4. Özünü tənzimləyən təşkilatların əmlakı, onların üzvlərinin idarə olunması, üzvlüyünə qəbul qaydaları, üzvlərinin hüquq və vəzifələri Azərbaycan Respublikasının mövcud qanunvericiliyi, təşkilatın nizamnaməsi və daxili sənədləri ilə müəyyən edilir.

3, 4, 5, 6 bəndlər Qüvvədən düşüb(02.07.2004)

7. Öz-özünü tənzimləyən təşkilat tərəfindən üzvlərinin fəaliyyətinə nəzarət.

7.1. Öz-özünü tənzimləyən təşkilat qiymətli kağızlar haqqında Azərbaycan Respublikası qanunvericiliyinə, QKDK-nın normativ aktlarına və təşkilatın daxili sənədlərinə üzvləri tərəfindən əməl edilməsinə nəzarət etməlidir.

Öz-özünü tənzimləyən təşkilat yalnız öz üzvlərinə nəzarət edir.

7.2. Öz-özünü tənzimləyən təşkilat üzvlərinə nəzarət etmək məqsədilə:

7.2.1. təşkilatın üzvlərinin fəaliyyətini QKDK-a ilə birgə və ya sərbəst yoxlayır;

7.2.2. fiziki və hüquqi şəxslərin təşkilatın üzvləri barəsində şikayət və ərizələrini yoxlayır;

7.2.3. Azərbaycan Respublikası qanunvericiliyinə, QKDK-nın normativ aktlarına üzvlər tərəfindən əməl olunmasına nəzarət etmək üçün lazım olan məlumat və sənədləri onlardan tələb edir;
7.2.4. Azərbaycan Respublikası qanunvericiliyinin pozulması və yoxlamaların nəticələri haqda QKDK-ya məlumat verir;

7.2.5. baş verən qanun pozuntularının aradan qaldırılması üçün öz üzvlərinə tövsiyyələr verir;

7.2.6. qiymətli kağızlar bazarında peşəkar fəaliyyətlə bağlı risklərin kompensasiyası məqsədilə yaradılan kompensasiya və digər fondlarda üzvlərinin iştirakına nəzarət edir;

7.2.7. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq üzvlərə sanksiyalar tətbiq edir.

7.3. Öz-özünü tənzimləyən təşkilatın üzvü qanun pozuntusuna yol verdikdə, təşkilat qanun pozuntularını aradan götürməlidir.

7.4. Öz-özünü tənzimləyən təşkilat qiymətli kağızlar bazarındakı fəaliyyətlə dəyən zərərin ödənilməsi məqsədilə kompensasiya və digər fondları yaratmaq hüququna malikdir.

7.5. Qüvvədən düşüb(02.07.2004)

8. Öz-özünü tənzimləyən təşkilatın hesabatı.

8.1. Öz-özünü tənzimləyən təşkilat mühasibat hesabatını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aparır.

8.2. Öz-özünü tənzimləyən təşkilat və onun rəhbərləri hesabatlardakı məlumatların düzgünlüyünə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyət daşıyırlar.

9. Öz-özünü tənzimləyən təşkilatın fəaliyyətinə nəzarət.

9.1. Öz-özünü tənzimləyən təşkilatın fəaliyyətinə nəzarət Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilir.

9.2. Öz-özünü tənzimləyən təşkilat Azərbaycan Respublikasının qanunvericiliyinin, bu Qaydaların, QKDK-nın normativ aktlarının pozulması haqda QKDK-nın bildirişini aldıqda, dərhal qanun pozuntuları aradan qaldırılmalıdır.

9.3. QKDK öz-özünü tənzimləyən təşkilatların reyestrini aparmalıdır.

9.4. Özünü tənzimləyən təşkilat öz fəaliyyəti haqqında məlumatı mütamadi olaraq açıqlanmalıdır.

10. Məsuliyyət.

10.1. Bu Qaydalarda təsbit olunmuş müddəaları pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

11.Qüvvəyə minməsi.

11.1. Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.